**XURAMAN RƏFİYEVA**
**ADPU-nun Şəki filialı**
**Şəki şəh.,M.Rəsulzadə küç., 305**
**E-mail: xrefiyeva@gmail.com**

# XARİCİ DİLLƏRİN ÖYRƏNİLMƏSİNDƏ SİNİFDƏN VƏ MƏKTƏBDƏNXARİC TƏDBİRLƏRİN ROLU

Nitq ,müəllifin dili, danışma tələbənin anlaması ilə ölçülür. Şagirdlərin nitqi başa düşməsi üçün onların lüğət tərkibinin zəngin olması lazımdır. Lüğət tərkibi nə qədər zəngin olarsa, şagirdin xarici dildə danışması bir o qədər asan olar.Danışıq praktikasında əsas diqqət şagirdi həmin dildə çoxlu danışmaq və məşq etməyə yönəltməkdir.

Şagird diqqətini cəmləyib dərsə yönəldə bilsə, onun şifahi nitqi inkişaf edər.Uşaqların nitqinin hər bir cəhəti (söz ehtiyatı, fonetika, qrammatika) nitqin yeni inkişaf mərhələsinə keçməyə imkan verir.

Şagirdlər şifahi və yazılı nitqə elmi cəhətdən yiyələnir, qrammatik qaydalarla tanış olur, dilin spesifik xüsusiyyətlərii öyrənirlər. Xarici dilin tədrisi zamanı şagirdlərdə dilin komponentlərinin (tələffüz, lüğət və qrammatika) və dil bacarıqlarının (oxu, yazı, dinləmə və danışıq) inkişaf etdirilməsi diqqət mərkəzində durur və qiymətləndirmə də müvafiq olaraq bu meyarlarla həyata keçirilir. Dil ünsiyyət vasitəsi olduğundan onu öyrənməkdə başlıca məqsəd bu dildə ünsiyyət qurmaq bacarığına yiyələnməkdir ki, bunun da səmərəli yolu bütün şagirdlərin dərs zamanı xarici dildə mümkün qədər çox danışmasına şərait yaratmaqdır.

Ən önəmlisi isə şagirdlərə öyrənilən xarici dildə şifahi nitq vərdişlərinin aşılanması və beləliklə orta məktəbin yuxarı siniflərində ingilis dilini öyrənən şagirdlərə tədris edilən dildən istifadə edərkən əminlik hissini aşılamaqdır.

**Açar sözlər:** tələffüz,bacarıq və vərdişlər,İKT-dən istifadə,innovasiyalar,əyanilik.

Xarici dillərin tədrisi Vətənimiz üçün strateji əhəmiyyət kəsb edən dövlət məsələsidir.Gənclərimiz nə qədər çox dil bilsələr,bir o qədər zəngin dünyagörüşə malik olarlar. Dil vasitəsilə xalqın gələcəyə inamı artır. Dil ünsiyyət vasitəsi olduğundan onu öyrənməkdə başlıca məqsəd bu dildə ünsiyyət qurmaq bacarığına yiyələnməkdir ki, bunun da səmərəli yolu bütün şagirdlərin dərs zamanı xarici dildə mümkün qədər çox danışmasına şərait yaratmaqdır.

Orta ümumtəhsil məktəblərində xarici dillərin öyrədilməsinin böyük praktik və tərbiyəvi əhəmiyyəti vardır.

Xarici dillərin tədrisi prosesində şagirdlər dünya xalqları arasında olan qarşılıqlı əlaqələri və bu xalqların bir - birinə yaxınlığını öyrənirlər, həmin xalqların mədəniyyət və tarixi ilə tanış olurlar.Tədris planlarında xarici dilə ayrılan saatların azlığı müəllimim çox vaxt tədris prosesini orta səviyyəli şagirdlərə uyğunlaşdırmaq məcburiyyətində qalması dilin dərindən və intensiv şəkildə öyrənilməsinə imkan vermir. Bundan isə ən çox dil öyrənməyə həvəsi və qabiliyyəti olan olan şagirdlər ziyan çəkirlər. Məhz bu zaman maraq üzrə kurs məşğələləri məktəbin, müəllimin köməyinə gəlir. Əbədi ümummilli liderimiz H.Ə.Əliyev demişdir : "Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşə malik olacaqlar. Bu, müasir dünyanın tələbidir."

Müasir şəraitdə dil öyrənmənin zəruriliyini,dil öyrənməyə həvəs və maraq göstərən şagirdlərin çoxluğunu nəzərə alaraq məktəblərimizdə xarici dillərdən maraq üzrə kurs məşğələlərinin təşkilinə xüsusi diqqət yetirilir.Məşğələlərin proqramı qabaqcıl dil müəllimləri tərəfindən tərtib edilərək, metodbirləşmələrdə müzakirə olunur və məktəbin pedaqoji şurasında təsdiqlənir. Müəllimlər çalışırlar ki, kurs məşğələlərinin proqramı dərs proqramı ilə eyniyyət təşkil etməyib onu daha da zənginləşdirməyə xidmət etsin. Məşğələlərin təşkilində aşağıdakı məsələləri ön plana çəkmək lazımdır:

1. Şagirdlərin dilini öyrəndiyi ölkənin tarixi hadisələri ilə tanış edilməsi.
2. Diyarşünaslıq materiallarından istifadə edilməsi.
3. Müxtəlif səhnəciklərin hazırlanması.
4. Xarici ölkələrə məktublaşmanın təşkil edilməsi.
5. Ümumməktəb tədbirlərində iştirak etmək.

Çalışmaq lazımdır ki, bütün bunlar şagirdlərin öyrəndikləri xarici dildə aparılsın. Şagirdlər dinlədiyi nitqi başa düşməli, oxuyub tərcümə etməyi bacarmalı, şifahi nitq mövzuları ətrafında söhbət aparmağı bacarmalıdırlar. Şagirdlər bilik və bacarıqlara elə yiyələnməlidirlər ki, orta məktəbi bitirdikdən sonra bu sahədə qazandıqlarını təkmilləşdirib inkişaf etdirə bilsinlər. Hamıya məlumdur ki, xarici dilə maraq oyatmaq və şagirdlərə sevdirmək o qeder de asan deyil. Çalışmaq lazımdıır ki, şagirdin qarşısına məqsəd qoyulsun, şagird özü sərbəst və ya yoldaşlarının köməyi ilə onun həllinə yol tapsın. Belə olduqda o əmin olacaq ki, nəyisə bilir və öz bilik və bacarığını artırmağa çalışacaq.

Bu da şagirddə dilə maraq, seving və həvəs oyadacaq. Yaxşı olardı ki,şifahi nitqin bilik və bacarıqlarının maraq kurslarında inkişaf etdirilməsi otaqda hərəkətdən,əşyaların qarışdırılmasından, jest və mimikalardan başlansın.Belə olduqda şagirdlər dərsdən sonrakı yorğunluqlarını atar və fəallaşar. Şagirdlər səhv etməkdən qorxmamalıdırlar.Müəllimin tənqidi qeydləri, tez-tez səhvlərin düzəlişi işə marağı və özünə inamı azaldır(1.s,36) .

Kurs proqramları tərtib olunarkən dilin praktik öyrənilməsinə kömək edən çalışmalarla, dili öyrənilən ölkənin siyasi, iqtisadi və mədəni həyatı ilə əhatəli tanış olmağa imkan verən internet materiallarına geniş yer veriməlidir. Məşğələlər elə təşkil edilməlidir ki, şagirdlər ağır iş günündən – dərslərdən sonra yorğunluq hiss etməsinlər, onlarda həvəslə iştirak etsinlər.

Kurs məşğələləri planlı və müəyyən sxem üzrə aparılmalıdır. Məşğələnin proqramı dərs proqramı ilə eyni deyil, lakin öz məqsəd, məzmun və strukturu ilə xarici dil dərslərinə yaxındır (1.s.29).

Dərslə kurs məşğələləri zəncirvari halqa təşkil edir. Məşğələlər bütün yaşdan və müxtəlif yaradıcılıqla məşğul olan ( oxu, qiraət, səhnəcik, dili öyrənilən ölkənin mahnılarının səslənməsi, əyani vəsaitlərin, videoların hazırlanması, internetdən istifadə, bülleten və divar qəzetlərinin çıxarılması və s.) fəal şagirdləri birləşdirir. Psixoloq L.M.Fridmanın sözü ilə desək, şagird özünün və kollektivin, başqa sözlə cəmiyyətin qarşısında dərs prosesində mümkün olmayan sərbəst yaradıcılığa malik olur.(2.s,260)

Şağirdlərdə nitqi dinləyib,anlama bacarığının formalaşmasına xüsusi diqqət yetirilir. Çünki bunsuz xarici dildə danışmaq çətindir. Bu məqsədlə biz müəllimlər məşğələlərdə dil mühiti yaratmağa çalışır,akustik tədris vəsaitlərinin bütün növlərindən imkan daxilində istifadə edirik.

Sinifdənxaric işlərin əsas məqsədi aşağıdakılardan ibarətdir:

1.Bilik, bacarıq və vərdişlərin genişləndirilib dərinləşdirərək kommunativ fəaliyyəti mənimsətmək;

2.Şagirdlərin öyrənmə qabiliyyətini stimullaşdırmaq;
3.Şəxsiyyətin hərtərəfli inkişaf etdirilməsi.

Xarici dildə sinifdənxarıc işlər uşaqların maraq dairəsində olarsa, onda onların şəxsi münasibətləri ilə üst üstə düşər:,,Xarıcı dildə oxumaq istəyirəm'', ,,Dilini öyrəndiyim ölkə haqqında daha çox şeylər bilmək istəyirəm'' , ,,Gələcək ixtisasımda xarıcı dildən istifadə etmək istəyirəm'' , ,,Öyrəndiyim dildə mahnıların sözlərini başa düşmək istəyirəm'' və s.

Maraq üzrə kurs məşğələlərinin əsas vəzifələrindən biri də şagirdləri istiqamətləndirməkdir. Bu məqsədlə məşğələlərdə şagirdlər arasında müsabiqələr təşkil edilir.,,Kim daha yaxşı şeir deyər?,Kim çox söz bilər?,Hər sözdə neçə hərf birləşməsi var?,Kim şəkil üzrə daha tez hekayə qura bilər?və s. mövzularda keçirilən müsabiqələr,oyunlar şagirdlərin fəallığını artırır,onlar daha yaxşı çalışmağa can atırlar.(1.s,49)

Müəllimlər çalışmalıdırlar ki, işin ritminə, şagirdlərin bilik və bacarıqlarının səviyyəsinə müntəzəm diqqət yetirsinlər, onların hər birinin müvəffəqiyyətini ayrıca qiymətləndirsinlər. Şagirdin qarşısında qoyduğu situasiyalar, müzakirələr, detalların dəqiqləşdirməsi müəllimin bacarığında böyük rol oynayır. (1.s,37)

Müəllim tədris materialını mənimsədərkən asandan çətinə, sadədən mürəkkəbə üsulu ilə başa salmalıdır. Əgər müəllim həssas, qayğıkeşdirsə onda o, təlim prosesində qarşıya çıxan bütün çətinlikləri və maneələri asanlıqla dəf edə biləcək. Bunun nəticəsində də şagirdlərdə dilə və müəllimə, fənnə maraq , rəğbət oyanır. Şagirdlərə imkan daxilində sərbəstlik verilməli, onların müstəqil fəaliyyətinə nail olunmalıdır.

Lakin bu xeyirxah münasibətlər müəyyən çərçivədə olmalıdır, əks təqdirdə "müəllim-şagird" münasibətindəki sistem pozular. Şagirdlər yalnız fəal və müstəqil düşündükləri zaman bilikləri şüurlu və möhkəm mənimsəyə bilirlər. Şagirdləri fəallaşdırmaq üçün nitq yaradıcılığına aid verilmiş tapşırıqlar əsasında oxuya maraq yaratmaq, onlara dilin çətinliklərinə üstün gələrək oxunu öyrətmək lazımdır. Şagird öz oxuduğundan razı qalırsa, bu oxu prosesini sürətləndirməyə kömək edəcəkdir. Şagirdin sürətli və rəvan oxuması üçün maraqlı və sadə, başadüşülən dil materialları lazımdır.

Şagirdlərdə nitqi dinləyib anlama bacarığlnın formalaşmasına xüsusi diqqət yetirmək lazımdır. Çünki bunu bilmədən xarici dildə danışmaq çətindir.Danışma və dinləmə nitq fəaliyyətinin iki ayrılmaz hissəsidir.Dinləmə seçilmiş materiallardan asılıdır.

Dərnək rəhbəri bilməlidir ki, uşaqlar nəyə qulaq asmaq istəyirlər. Aşağı sinif şagirdləri müəllimə, rəngli şəkillərdən,maraqlı fiqurlardan ibarət disklərə, internet materiallarına, səssiz qulaq asırlar.Uşaqlar üçün ən maraqlısı illustrasiyalı tanınmış xalq nağıllarını dinləməkdir. Bu məqsədlə məşğələlərdə dil mühiti yaratmağa çalışmaq, akustik tədris vəsaitlərinin bütün növlərindən imkan daxilində istifadə etmək lazımdır.

Dərnəyin bütün mərhələlərində elan olunmuş işə maraq oyanmalıdır. Məsələn məktəblilərin həyatındakı hadisələr, keçmiş yarışlardakı şərhlər, iməciliklər, bayramlar, ən yaxşı şagirdlər haqqında hekayələr,müsahibə, və s. Hal-hazırda sinifdənxaric işlərin aparılmasını audiovizual təlim alətlərindən istifadə etmədən təsəvvür etmək mümkün deyil.

Xarıcı dillərin öyrənilməsinin hər hansı bir mərhələsində viktorinalardan istifadə etmək olar.Konkursun ən geniş yayılmış formalarından bunları - viktorinalar,olimpiadalar,KVN, ''Nə ? Harda? Nə vaxt?, saymaq olar. Viktorinalara müxtəlif bilik və bacarıqları olan şagirdlər cəlb olunur. Viktorina iştirakçılarına bu məzmunda suallaar vermək olar:

1.Siz dilini öyrəndiyiniz ölkənin şair və yazıçılarını, bəstəkarlarını, alim və idmançılarını və s. tanıyırsınızmı?

2. Siz dilini öyrəndiyiniz ölkənin iqlimini,bitki və heyvanlar aləmini,çaylarını, dağlarını tanıyırsınızmı?
3. Dilini öyrəndiyiniz ölkənin hansı tarixi hadisələri sizə məlumdur?

4. Dilini öyrəndiyiniz ölkənin hansı görməli yerləri sizə məlumdur?
5. Dilini öyrəndiyiniz ölkənin gənclərinin həyatı haqqında nə bilirsiniz? (2.s,270)

Bəzən şagirddən soruşurlar ,,Xarici dili nə üçün öyrənirik ?“ , şagirdlər bu sualın cavabını dərslərdə, dərnəklərdə, məşğələlərdə tapmalıdlr. Şagirdlər dili nə qədər yaxşı öyrənsələr, bir o qədər də xarici məktəblilərlə sıx əlaqə saxlaya bilərlər.

Müəllimin vəzifəsi ondan ibarətdir ki, müəyyən istiqamətdə məşğələlərin həyata keçirilməsini təmin etmək üçün öz təcrübə və imkanlarına istinad edərək müxtəlif növ məşğələlərdən istifadə edib öz xüsusi planını işləyib hazırlasın. Təcrübə göstərir ki, işə ciddi yanaşdıqda maraq üzrə kurs məşğələlərini yüksək səviyyədə təşkil etmək mümkündür

## İstifadə edilmiş ədəbiyyat

1. С.Н.Сабина, Внеклассная работа по иностранным языкам- Москва, просвещение - 1991
2. Г.В.Рогова, Ф.М.Рабинович, Т.Е.Сахарова, Методика обучения иностранным языкам ’’Моска просвещение -1991
3.Yeni təlim texnjlogiyaları (ümümtəhsil məktəblərində seçmə fənlərin tədrisi üçün metodik vəsait),2001.01.12
4.Le français dans le monde.Recherches et applications.1999.
5.Праздник в школе.Сост.С.А.Тухулова.-М.,1987

**Х.Рафиева**

## Роль внеклассных и внешкольных мероприятии при изучение иностранных языках

### Резюме

Речь, язык спикера и понимание студентам, измеряется по их разговорам. Развитие обучения языку связной речи в старших классах из-за широкого спектра психических и физиологических процессов трудно разработать. Дети обладают богатым словарным запасом, грамматикой и правильным произношением. Они доведены до уровня говорить ясно и широко используя все процессы. Главные речи студентов исправлены своими мыслями и чувствами, и навыками обучения сформулировать четкую и последовательную манеру.

Говоря о языке, лексические и грамматические правила важно объяснить студентам. В планировании и проведение внеклассной работы по предмету необходимо принимать во внимание, что значима и эффективна в том случае, если каждое ее мероприятие органически вписывается в учебно-воспитательный процесс школы. Основное внимание уделяется практике речи; при этом если иметь в виду тренировку и применение, то приоритет принадлежит применению. Подготовленная речь обеспечивает неподготовленную, т.е. на основе нового стимула без всяких опор.

Занятия в факультативном курсе отличаются по структуре и организации. Внеклассная работа открывает широкие возможности для осуществления гуманистского воспитания и для формирования мировоззрения школьников.

В основе внеклассной работы лежит самоуправление школьников. Во внеклассной работе учителю предоставляются также большие возможности в привлечении внимания к самой языковой материи. Когда мы говорим о руководство внеклассной работе учителем, мы имеем в виду учителя иностранного языка. Следует обратить внимание создание визуальных средств самими участниками.

Избежать языковой перегрузке во внеклассной работе позволяет установление тесной связи с уроками иностранного языка. Ее следует рассматривать как один из способов систематизации языкового материала урочной и внеурочной работы. Особого внимания требует организация речевого общения.

Старшеклассника важно оформить свое высказывание, чтобы оно не выглядело примитивным.

***Ключевыеслова:***произношение, навыки и привычки,использованиеИКТ,инновации, ясность.

**KH.Rafiyeva**

## Role out-of-class and out-of-school action when studying foreign languages.

### Summary

Speaker's speech, language and understanding of students are measured by their conversation. The development of coherent speech language teaching high school is difficult to develop a wide range of psychiatric and physiological process.

Children possess a rich vocabulary, grammar and pronunciation correctly when they are brought up to speak clearly and extensive use of all the processes. Main speech of students is corrected by their own thoughts and feelings, and teaching skills articulate a clear and consistent manner.

İt is important to explain lexical and grammatical rules to the students while teaching speaking. In the planning and implementation of the in-class work, you will not be able to get the idea of being effective person, even if the event is organically enrolled in an instructional process. The basic understanding of the practice is discussed in the class; Moreover, if we keep in mind the training and application, the priority belongs to the application.

The prepared speech provides unprepared, i.e. on the basis of a new stimulus without any support. Classes in the optional course differs depending on the structure and organization. Out-of-class work opens up broad opportunities for the implementation of humanistic education and for the formation of the outlook of school children.

At the heart of extracurricular work is the self-management of schoolchildren. In extracurricular activities, the teacher is also provided with great opportunities in drawing attention to linguistic matter itself. When we talk about the leadership of extracurricular work as a teacher, we mean a teacher of a foreign language. Attention should be paid to the

creation of visual tools by the participants themselves. To avoid language overload in extracurricular work allows the establishment of a close relationship with the lessons of a foreign language.

To avoid language overload in extracurricular work allows the establishment of a close relationship with the lessons of a foreign language. It should be considered as one of the ways to systematize the language material of both homework and extracurricular work. Special attention requires the organization of speech communication. It is important for a high school student to make a statement so that it does not look primitive.

**Key words:** prononciation,skills and habits, use of ICT, innovations, visibility.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 26.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Ulduz Mürşüdova  tərəfindən çapa tövsiyə olunmuşdur.